Bank Olmayan Kredit Təşkilatı “Falcon Finance” Məhdud Məsuliyyətli Cəmiyyəti

---

Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 700 (yeddi yüz) ədəd

faizli, təminatsız, sənədsiz, adlı istiqrazların

# İnformasiya Memorandumu

(Bu İnformasiya Memorandumunda olan məlumatlar 15 may 2015-ci il tarixli Azərbaycan Respublikasının Qiymətli Kağızlar bazarı haqqında Qanununa uyğun olaraq açıqlanmışdır.)

Qeyd: Azərbaycan Respublikası Mərkəzi Bankı bu İnformasiya Memorandumunda olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

**Bakı – 2023**

İnformasiya Memorandumunun tərtib edilməsində iştirak edən şəxslər və İnformasiya Memorandumunda təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

Biz, aşağıda imza edənlər,

1. Bu İnformasiya Memorandumunu tərtib etməzdən öncə "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

2. Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 700 (yeddi yüz) ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazların İnformasiya Memorandumuna daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

BOKT "Falcon Finance" Məhdud Məsuliyyətli
Cəmiyyətinin
Direktoru:
Salmanov İbrahim Elşən oğlu

(imza)
M.Y.

BOKT "Falcon Finance" Məhdud Məsuliyyətli
Cəmiyyətinin
Maliyyə Menecmenti Departamentinin Direktoru:
Muradova Gülər Cavanşir qızı

(imza)
M.Y.

**Bakı – 2023**

## MÜNDƏRİCAT


1. Bəyanat ........ 2
2. İnformasiya Memorandumu ........ 4
3. İstiqrazların Emitenti barədə məlumat ........ 4
4. İstiqrazlar barədə tələb olunan məlumat ........ 6

## İnformasiya Memorandumu

Xəbərdarlıq.

Bu sənəd İnformasiya Memorandumunun giriş hissəsidir.

İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar verməzdən əvvəl bu İnformasiya Memorandumunu oxuduqdan sonra həyata keçirilməlidir.

İnformasiya Memorandumunda olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman İnformasiya Memorandumunu hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar.

## 1. Emitent haqqında məlumat

1.1. **Emitentin tam adı:** Bank Olmayan Kredit Təşkilatı "Falcon Finance" Məhdud Məsuliyyətli Cəmiyyəti

1.2. **Emitentin olduğu yer və qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli, ev156.

1.3. **Emitentin təşkilatı-hüquqi forması:** Məhdud Məsuliyyətli Cəmiyyət

1.4. **Emitent və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:** Azərbaycanın Bank olmayan Kredit Təşkilatı olan "Falcon Finance" MMC-nin inkişaf tarixi 9 ili əhatə edir. "Falcon Finance" MMC Maliyyə Nazirliyi tərəfindən verilmiş 27 may 2013-ci il tarixli 2002647911 saylı şəhadətnamə ilə qeydiyyata alınaraq fəaliyyətə başlamışdır. 25 sentyabr 2013-cü il tarixində Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən BKT-16 saylı müddətsiz lisenziya verilmişdir. Cəmiyyət maliyyə bazarında dayanıqlı mövqe tutmuş və fəaliyyəti ərzində müştərilərin inamını doğrultmuşdur.

Bizim kredit anlayışımız müştəri yönümlü yanaşma ilə güvənə və ədalətə əsaslanan şəffaf və mütərəqqi kredit xidməti göstərməkdir. Məqsədimiz sürətlə yox, keyfiyyətlə böyümək və pərakəndə kredit bazarında ən arzuolunan cəmiyyət olmaqdır. "Falcon Finance" MMC-nin müştərilərinə göstərdiyi yüksək və operativ xidmət onun kredit bazarında möhkəmlənməsinə səbəb olmuşdur. Hazırki dövrdə kredit təşkilatlarına əsas təsir edən faktorlar olan valyuta riskləri və portfel keyfiyyəti kimi faktorlar BOKT "Falcon Finance" MMC-də qənaətbəxş idarə olunur. Belə ki, təşkilatın portfelində prospektin hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlər yoxdur və kredit portfeli milli valyutada formalaşdırılmışdır.

1.5. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Mövcud deyil.

1.6. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil

1.7. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Müstəqil auditor cəmiyyəti olan OSHAR MMC-nin verdiyi audit rəyinə əsasən BOKT "Falcon

Finance" MMC-nin maliyyə hesabatları bütün əməliyyatlı aspektlər baxımından təşkilatın il sonuna maliyyə vəziyyətini və həmin il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (BHMS) uyğun olaraq düzgün əks etdirir.

1.8. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat:**

Son üç maliyyə ilinin sonuna seçilmiş maliyyə məlumatları (2019, 2020, 2021) aşağıdakı kimidir:

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Cəmi Aktivlər (AZN) | 201,683.00 | 528,716.00 | 1,557,653.00 |
| Cəmi Öhdəliklər (AZN) | 3,226.00 | 147,020.00 | 1,056,875.00 |
| Cəmi Kapital (AZN) | 198,457.00 | 381,696.00 | 500,778.00 |
| Pul vəsaitləri (AZN) | 139,673.00 | 20,402.00 | 67,477.00 |
| Kredit portfeli (AZN) | 21,268.00 | 447,371.00 | 1,419,972.00 |
| Gəlirlər (AZN) | 23,943.00 | 76,448.00 | 337 791.00 |
| Mənfəət (AZN) | (39,836.00) | (16,761.00) | 119,082.00 |

**Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişiklik olmamışdır.**

1.9. **Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:** "Falcon Finance" MMC-nin ödəmə qabiliyyətində artım tempi müşahidə edilir. Buna səbəb son dövrlərdə kredit yığımlarında kəskin artımın olmasıdır.

1.10. **Emitentin əsas fəaliyyətlərinin təsviri:**

BOKT "Falcon Finance" MMC AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.

Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "Falcon Finance" MMC, həmçinin aşağıdakı fəaliyyət növlərinidə həyata keçirə bilər:

- Biznes kreditləri;
- İstehlak kreditləri;
- Məişət kreditləri;
- Qarantiyanın verilməsi

1.11. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti:**

Cəmiyyətin ali idarəetmə orqanı onun ümumi yığıncağıdır. Ümumi yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edəb ilər. Ümumi yığıncaq növbəti və

növbədənkənar ola bilər. Ümumi yığıncaq nizamnamə kapitalında 50 (əlli) faizdən artıq paya malik olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır. Emitent üzərində nəzarət təsisçilər tərəfindən yaradılmış və mühüm səlahiyyətlərə malik olan Müşahidə Şurası vasitəsilə təmin edilir. Emitentin cari fəaliyyətinin icrasına nəzarət isə İdarə Heyəti tərəfindən həyata keçirilir.

## 2. İstiqrazlar haqqında məlumat

2.1. **İstiqrazların növü və forması:** Faizli, təminatsız, sənədsiz, adlı istiqraz

2.2. **İstiqrazların valyutası:** Azərbaycan manatı (AZN)

2.3. **İstiqrazlar ilə təsbit olunan məhdudiyyətlər:** Qanunvericiliklə tənzimlənən prosedurlardan əlavə hər hansı bir məhdudiyyət nəzərdə tutulmamışdır.

2.4. **İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

2.4.1. İstiqrazların tədavül müddəti bitdiyi vaxtda istiqrazın nominal dəyərini emitentdən almaq;

2.4.2. İstiqrazların nominal dəyərindən illik 14 (on dörd) % olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;

2.4.3. Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

2.4.4. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar;

2.5. **İstiqrazlar üzrə illik faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 14 (on dörd) faiz təşkil edir. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər 30 (otuz) təqvim günündən bir ödənilir. Ödəniş tarixi qeyri-iş gününə təsadüf etdikdə faiz ödənişi növbəti ilk iş günü ödənilir. İstiqrazların tədavül müddəti 1 (bir) ildir (1 il 360 gün hesab edilməklə). İstiqraz sahiblərinə istiqrazlar üzrə əsas məbləğin ödənişi tədavül müddətinin sonunda - ilk istiqrazın yerləşdirildiyi tarixdən 1 (bir) təqvim ili sonra həyata keçiriləcək.

2.6. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:**

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

$TF = (N*D*G/360)/100$

burada,

TF – Bir istiqraz üzrə toplanmış faizlər;

N – Bir İstiqrazın nominal dəyəri - 1 000 (bir min) AZN;

D – İstiqrazların illik gəlirlik dərəcəsi - 14 (on dörd);

G – İstiqrazların ödəniş dövrünün müddəti - (30 gün)

2.7. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** İstiqrazların kütləvi yerləşdirilməsi nəzərdə tutulduğundan istiqrazların mülkiyyətçisi yalnız onların yerləşdirilməsindən sonra müəyyən olunacaq.

2.8. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri.**

İstiqrazların kütləvi təklif üsulu ilə yerləşdirilməsi "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir.

2.9. **Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları aşağıdakılardır:**

- *valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;*
- *faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;*
- *inflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;*
- *likvidlik riski - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;*
- *əməliyyat riski - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;*
- *hesablaşma və kontragent riski - hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;*
- *kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;*
- *təbii - insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər);*

2.10. **Emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:**

Emitentin fəaliyyəti ilə bağlı əməkdaşlıq etdiyi üçüncü tərəf təşkilatların maliyyə sıxıntısı, kredit və ödəmə qabiliyyətinin itirilməsi riskləri emitentin ödəmə qabiliyyətinə təsir edə bilər. Lakin emitent dövrü olaraq bu riskləri qiymətləndirmək və minimallaşdırmaq üçün kredit ehtiyatları və Qarşısıalınma tədbirləri fonduna ayırmalar edir.

2.11. **Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:**

Emissiyadan əldə ediləcək vəsait cəmiyyətin gələcək fəaliyyətinin dəstəklənməsi , o cümlədən cəmiyyətdə iqtisadi inkişafa nail olmaq və milli sərvətin artırılmasını təmin etmək üçün zəruridir. Cəmiyyət eləcə də, bu emissiya ilə bazarda cəmiyyətin borclana bildiyi müqayisəvi dərəcəni (benchmark) müəyyənləşdirmək niyyətindədir.

2.12. **Təklifin şərtləri**

2.13. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:

2.13.1. **Yerləşdirmənin başlanma tarixi:**

Yeni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikası Mərkəzi Bankı (bundan sonra Mərkəzi Bank) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix BFB-nin və anderrayterin saytında investorlara açıqlanacaqdır.

2.13.2. **Yerləşdirmənin başaçatma tarixi:** Hərrac qaydalarına uyğun olaraq BFB və anderrayter tərəfindən elan edilən müvafiq hərracın baş tutduğu gün.

2.13.3. **İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazların yerləşdirilməsi prosesində abunə yazılışı nəzərdə tutulmamışdır.

2.13.4. **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası və şərtləri:**

İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, istiqrazlar sifarişlərin icrası şərtlərinə müvafiq olaraq investorlar arasında sifarişlərdə göstərilmiş istiqrazların miqdarına mütənasib miqdarda yerləşdiriləcəkdir. Hərrac zamanı pul vəsaitləri investorlar tərəfindən hərrac günündən gec olmayaraq "PSG-Kapital İnvestisiya Şirkəti" ASC-nin hesablaşma agenti olan "Azər-Türk Bank" ASC-də olan hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən olunur və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet səhifəsində (www.falcon.az) açıqlanır.

2.13.5. **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların dəyərinin ödənilməsi köçürmə yolu ilə investisiya şirkəti vasitəsilə həyata keçirilir. Kliring qaydalarına müvafiq olaraq, istiqrazları əldə etmək istəyən investorlar istiqrazların yerləşdirilməsi barədə məlumat açıqlandığı vaxtdan etibarən öz təsdiq edilmiş sifarişlərini investisiya şirkətinə təqdim edir və almaq

istədiyi istiqrazların dəyərini İnvestisiya Şirkətinin Bank hesabına köçürür. Hərrac başa çatdıqdan sonra 1 iş günü ərzində investisiya şirkəti hərrac zamanı investor üçün aldığı istiqrazlar barədə rəsmi məlumatı (hesabatı) investora təqdim edir.

2.13.6. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:**

**Fond birjası**

Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazlarının listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. Bakı Fond Birjasının (BFB) missiyası qiymətli kağızların ticarətinin təşkilini və bağlanmış əqdlərin effektiv icrasını təmin edən ticarət sisteminin formalaşdırılması və inkişaf etdirilməsidir. BFB-nin strateji baxışı Maliyyə alətlərinin qabaqcıl texnologiyalar əsasında likvid, şəffaf və ədalətli ticarətini təşkil etməklə çevik investisiya imkanları təklif edən etibarlı və dayanıqlı təşkilata çevrilməkdir.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və Daxili Qaydaları ilə tənzimlənir.

- *Faktiki ünvanı: Bakı ş., Yasamal r-nu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)*
- *Telefon: 994-12-4880580*
- *E-mail: info@bse.az*

**Mərkəzi depozitar**

Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. İstiqrazların yerləşdirilməsi prossesində MDM-in vəzifələrinə aşağıdakılar daxildir:

- *Depozitar və reyestrsaxlayıcı (istiqrazların saxlanması və istiqraz mülkiyyətçilərinin reyestrinin aparılması)*
- *Bağlanmış əqdlər üzrə kliring və hesablaşmaların aparılması*
- *Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə (əsas borc və faiz) ödənişlərin həyata keçirilməsi xidmətlərinin göstərilməsi.*

Milli Depozit Mərkəzinin fəaliyyəti Azərbaycan Respublikasının "Qiymətli kağızlar bazarı haqqında" Qanunu ilə tənzimlənir.

- *Hüquqi ünvanı: AZ1000, Bakı şəh., Bül-Bül pr., 27*
- *Faktiki ünvanı: Bakı ş., Yasamal r-nu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)*
- *Telefon: 994-12-4880847*
- *E-mail: info@mdm.gov.az*

**Anderrayter**
Bu emissiyanın anderrayteri kimi "PSG-Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti "İnvestisiya Şirkəti fəaliyyəti"-ni həyata keçirmək üçün Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 01 saylı 31 Oktyabr 2022-cı il tarixli lisenziya hərrac üçün sifarişlərin toplanmasını və BFB-nin ticarət sistemində öhdəlik götürmədən yerləşdirilməsi xidmətlərini göstərir. Bundan əlavə, istiqrazlar üzrə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi, investisiya şirkəti qismində istiqrazlarla öz hesabına əməliyyatların aparılması və istiqrazlar üzrə investisiya məsləhətlərinin verilməsi kimi investisiya fəaliyyətlərini də göstərə bilər.

Emissiyada iştirak edən şəxslər arasında maraqların toqquşmasına səbəb ola biləcək hallar mövcud deyil.

2.13.7. **İstiqraz alıcısının ödəməli olduğu xərclər aşağıdakı kimidir:**

- Qanunvericiliklə nəzərdə tutulan halda istiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Hüquqi şəxs olan istiqraz mülkiyyətçilərinin istiqrazlar üzrə faiz gəlirindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123-cü maddəsinə müvafiq olaraq ödəniş mənbəyində 10 (on) faiz dərəcə ilə vergi tutulur. Bununla yanaşı, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə əsasən fiziki şəxslər 1 fevral 2016-cı il tarixindən etibarən 7 (yeddi) il müddətinə yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirlərindən azaddırlar. Həmçinin AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən KİV vasitəsilə investorların diqqətinə çatdırılacaqdır.
- *Əqdin məbləğinin 0.02 %-i həcmində BFB komissiyası*

- *İnvestisiya Şirkətində vasitəçilik üçün yarana biləcək xərclər (Şirkətlərdən asılı olaraq dəyişir)*
- *"Depo" hesabının açılması üçün 10 AZN*
- *Hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı köçürmə xərci (bankdan asılı olaraq dəyişir)*